Azərbaycan Respublikası
Mədəniyyət və Turizm Nazirliyi

İLHAM RƏHİMLİ

# AZƏRBAYCAN TEATR ENSİKLOPEDİYASI

## ÜÇ CİLDDƏ

## I CİLD

Azərbaycan Milli
Kitabxanası

BAKI – 2016



**FİRUDİN BƏY KÖÇƏRLİ**

*(26.1.1863, Şuşa – 20.5.1920, Gəncə). Pedaqoq, ədəbiyyatşünas, publisist, maarif xadimi.*

Firudin bəy Əhməd bəy oğlu Köçərli ilk təhsilini 1870 – 1872-ci illərdə Şuşada mollaxanada, 1872 – 1875-ci illərdə Mirzə Kərim Münşizadənin məhəllə məktəbində və 1876 – 1879-cu illərdə ikinci dərəcəli şəhər məktəbində alıb. 1885-ci ildə Qori Müəllimlər Seminariyasını bitirib. 1885 – 1896-cı illərdə İrəvan şəhərindəki gimnaziyada, 1896 – 1917-ci illərdə Qori Müəllimlər Seminariyasının Azərbaycan şöbəsində müəllim işləyib. Azərbaycan şöbəsi 1918-ci ildə Qazağa köçəndə Firudin bəy təhsil ocağına təşkilatçılıq və rəhbərlik edib.

Mütəfəkkir maarifçi İrəvanda işləyərkən bu şəhərdə teatr sənətinin tərəqqisində böyük işlər görüb. Köçərli teatr tamaşalarının hazırlanmasında təşkilati işlər görüb və bir sıra tamaşalara quruluş verib. Mirzə Fətəli Axundzadənin «Müsyö Jordan və dərviş Məstəlişah», «Hacı Qara», «Lənkəran xanının vəziri», Rzayevin «Zor ilə evlənməyin nəticəsi» («Könülsüz nikah»), Vasaq Mədətovun «Qırt-qırt», «Tamahkarlıq düşmən qazanır», Sultanməcid Qənizadənin «Dursunəli və ballıbadı» əsərlərini tamaşaya hazırlayıb. 1885 – 1918-ci illərdə yay aylarında Şuşaya gələndə yerli həvəskarların teatr tamaşaları hazırlamalarına yaxından köməklik göstərib.